II BÖLMƏ
AZƏRBAYCANDA BANK SİSTEMİ, MALİYYƏ, İNVESTİSİYA PROBLEMLƏRİ

UOT: 336.71; 336.76 **JEL:** G21; G28; E58

Sahil Vidadi oğlu MURTUZAYEV
Azərbaycan Dövlət İqtisad Universiteti,
“İqtisadi nəzəriyyə” kafedrası, doktorant
E-mail: sahilmurtuzayevsh@gmail.com
https://doi.org/10.30546/4.71.730.02.2026.064

AZƏRBAYCANDA BANKLARIN SAĞLAMLAŞDIRMA MEXANİZMİ MODELİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – 2015-2025-ci illərdə Azərbaycanda bankların sağlamlaşdırma mexanizmi modelinin səmərəliliyini qiymətləndirmək və bu tədbirlərin bank sektorunun dayanıqlığına və real iqtisadiyyata xidmət imkanlarına təsirini izah etməkdir.

Tədqiqatın metodologiyası – tədqiqat elmi abstraksiya, müqayisəli təhlil, statistik analiz və institusional yanaşma metodlarına əsaslanır. Bank sektorunun dayanıqlıq göstəriciləri, sektor davranışı və institusional dəyişikliklər analitik şəkildə qiymətləndirilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – əldə olunan nəticələr bank sektorunda sağlamlaşdırma siyasətinin təkmilləşdirilməsi, problemli aktivlərin idarə olunması və prudensial nəzarətin effektivliyinin artırılması üçün praktik tövsiyələr təqdim edir.

Tədqiqatın nəticələri – tədqiqat göstərir ki, sağlamlaşdırma modeli bank sektorunda risklərin daha şəffaf görünməsinə, kapital və likvidlik dayanıqlığının güclənməsinə və prudensial nəzarət çərçivəsinin möhkəmlənməsinə xidmət etmişdir. Eyni zamanda kredit funksiyasının bərpası, sektor etimadının sabitləşməsi və institusional koordinasiya modelin həssas istiqamətləri kimi müəyyən edilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə bank sağlamlaşdırması modelinin effektivliyi yalnız maliyyə göstəriciləri ilə deyil, həm də sektor davranışı və institusional dəyişikliklər kontekstində kompleks şəkildə qiymətləndirilmişdir.

Açar sözlər: bankların sağlamlaşdırılması, maliyyə sabitliyi, prudensial nəzarət, problemli kreditlər, kapital dayanıqlığı, bank sektoru.

Giriş

2015–2025-ci illər dövrü Azərbaycanda bank sektorunun keyfiyyətcə yeni tənzimləmə mərhələsidir. Bu dövrdə bankların sağlamlaşdırılması yalnız ayrı-ayrı maliyyə institutlarının qorunması kimi deyil, sistemli risklərin azaldılması, maliyyə sabitliyinin qorunması və bank xidmətlərinin dayanıqlı bərpası kimi başa düşülmüşdür. Bank sektoru real iqtisadiyyatla sıx bağlı olduğundan, sağlamlaşdırma mexanizmlərinin effektivliyi kredit dövriyyəsinin sabitliyi, maliyyə vasitəçiliyinin dərinliyi və iqtisadi etimad mühiti üçün həlledici əhəmiyyət daşıyır [8, s. 17–19].

Bankların sağlamlaşdırılması mexanizmi maliyyə dayanıqlığını bərpa etməyə yönəlmiş alətlər sistemidir: prudensial nəzarətin sərtləşdirilməsi, kapitalın gücləndirilməsi, risklərin yenidən qiymətləndirilməsi, problemli aktivlərin idarə olunması, korporativ idarəetmənin təkmilləşdirilməsi, bazardan çıxarılma və birləşmə. Azərbaycan şəraitində bu mexanizmlər iki paralel istiqamətdə – zəif

seqmentlərin təmizlənməsi və maliyyə sabitliyinin qoruyucu dayaqlarının yaradılması – işləmişdir.

Mövcud ədəbiyyat sağlamlaşdırmanı iki əsas prizmayla izah edir: böhran idarəetməsində zərərin minimallaşdırılması strategiyası [17, s. 205–208] və institusional islahatların tərkib hissəsi. İkinci yanaşmada effektivlik risk mədəniyyətinin formalaşması, məlumat açıqlığının artması, kredit portfelinin keyfiyyəti və bazar etimadının bərpası ilə tamamlanır. İnkişaf etməkdə olan bazarlarda nəticələr dollarlaşma, maliyyə dərinliyi və tənzimləyici institutların imkanları kimi ölkəyə xas amillərdən asılıdır [5, s. 22–25].

Bu məqalənin məqsədi 2015–2025 dövründə Azərbaycanda bankların sağlamlaşdırma mexanizmi modelinin effektivliyini çoxölçülü yanaşma ilə qiymətləndirməkdir: modelin maliyyə dayanıqlığına, dayanıqlıq göstəricilərinə, sektor davranışına və institusional nəticələrinə təsirini ardıcıl şəkildə izah etmək. Məqalə modelin güclü tərəflərini və məhdudiyyətlərini sistemləşdirir; tənzimləyici siyasətin təkmilləşdirilməsi üçün praktik tövsiyələr irəli sürür.

Tədqiqatın aktuallığı bank sağlamlaşdırması qərarlarının yüksək xərc və risk daşımasından irəli gəlir. Zəif dizayn edilmiş tədbirlər resursların qeyri-effektiv bölgüsünə, moral hazard (mənəvi riskin) riskinin artmasına və bazar intizamının zəifləməsinə gətirib çıxara bilər. Düzgün qurulmuş sağlamlaşdırma çərçivəsi isə risklərin vaxtında tanınmasını, problemlərin dərinləşməsinin qarşısının alınmasını və bank sektorunun real sektora xidmət funksiyasının bərpasını mümkün edir.

Məqalənin elmi yeniliyi iki istiqamətdə formalaşır: bank sağlamlaşdırması modelinin vahid mexanizm kimi sistemləşdirilməsi (məqsəd, alət, nəticə əlaqəsinin ardıcıl qurulması) və effektivliyin yalnız maliyyə göstəriciləri ilə deyil, sektor davranışının və risk idarəetmə məntiqinin dəyişməsi kontekstində də qiymətləndirilməsi.

Sağlamlaşdırma mexanizminin nəzəri və institusional çərçivəsi

Bankların sağlamlaşdırılması maliyyə sisteminin dayanıqlığını bərpa etməyə yönəlmiş idarəetmə mexanizmidir. Bu mexanizm adətən böhran dövrləri ərzində aktivləşir. Məqsəd bankları qısa müddətdə normal rejimə qaytarmaq deyil, riskləri azaltmaq və sektorun əsas funksiyalarını – maliyyə vasitəçiliyi, ödənişlərin fasiləsizliyi, əmanətlərin qorunması – qorumaq və dayanıqlı şəkildə bərpa etməkdir.

Sağlamlaşdırma mexanizmi iki səviyyədə formalaşır. Bank daxilindəki dəyişikliklər – kapitalın artırılması, risk idarəetməsinin yenilənməsi, kredit siyasətinin sərtləşdirilməsi, likvidliyin idarə edilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi. Sektor miqyasındakı qərarlar – nəzarətin gücləndirilməsi, problemli bankların konsolidasiyası, bazardan çıxarılma, sistemli bankların bərpası. Hər iki səviyyə bir-birini tamamlayır: daxili islahatlar xarici nəzarətsiz, xarici nəzarət isə daxili islahatlar olmadan real nəticə vermir [4, s. 12–14]. Sağlamlaşdırma alətləri dörd qrupa bölünür: (1) kapital bazasını gücləndirən alətlər – kapitalın artırılması, mənfəətin kapitallaşdırılması; (2) likvidliyi qoruyan alətlər; (3) aktiv keyfiyyətini yüksəldən alətlər – problemli kreditlərin tanınması, restrukturizasiya; (4) idarəetməni dəyişən alətlər – korporativ idarəetmə, daxili nəzarət, risk komitələri. Bu alətlər yalnız birlikdə işlədikdə davamlı effekt verir.

Sağlamlaşdırma siyasətinin məntiqi risk və məsuliyyət balansına söykənir: risk daşıyan tərəfin məsuliyyəti artırılmalı, zərərin sosiallaşdırılması minimumda saxlanmalı, moral hazard riski məhdudlaşdırılmalıdır. Azərbaycanda 2015–2025 dövrü üç əsas xətt boyunca inkişaf etdi: (1) prudensial tənzimləmənin güclənməsi – kapital adekvatlığı, likvidlik standartları, aktiv keyfiyyəti, məlumat açıqlığı tələblərinin sərtləşməsi; (2) sektorun struktur təmizlənməsi; (3) etimadın bərpası – şəffaflıq, sabit qaydalar, proqnozlaşdırılan siyasət.

Bu tədqiqatda effektivlik üç blok üzrə qiymətləndirilir: dayanıqlıq göstəriciləri (kapital, likvidlik, aktiv keyfiyyəti), sektor davranışı (kreditləşmə, depozit bazarı, valyuta davranışı) və institusional nəticələr (nəzarət çərçivəsi, şəffaflıq, idarəetmə standartları). Bu bloklar birlikdə modelin nəticəsini daha tam əks etdirir.

Mövcud beynəlxalq ədəbiyyat bank sağlamlaşdırmasının effektivliyini müxtəlif çərçivələrdə araşdırır. Laeven və Valencia (2020) 151 ölkə üzrə sistemli bankçılıq böhranlarının müqayisəli analizini apararaq erkən müdaxilənin gecikmənin yaratdığı zərəri əhəmiyyətli dərəcədə azaltdığını

göstərmişdir [15, s. 312–318]. Avgouleas və Goodhart (2020) bail-in mexanizminin şərtli tətbiqinin daha effektiv nəticə verdiyini, müdaxiləsiz xilas siyasətinin isə moral hazard riskini artırdığını vurğulamışdır [16, s. 8–14]. Brei və Gambacorta (2022) böhran sonrası tənzimləmə çərçivələrinin kreditin keyfiyyətinə uzunmüddətli müsbət təsir göstərdiyini ortaya qoymuşdur [13, s. 4–9]. Azərbaycana xas tədqiqatlar arasında Məmmədov (2022) 2015–2022 dövrünün transformasiya dinamikasını [12, s. 80–88], Aliyev (2023) isə prudensial nəzarət mexanizmlərini təhlil etmişdir [11, s. 48–55]. Bu tədqiqat mövcud araşdırmaları inkişaf etdirərək effektivliyi üç blokun birlikdə şərh olunduğu daha əhatəli çərçivədə qiymətləndirir.

2015–2025-ci illər dövründə sağlamlaşdırma modelinin praktik məzmunu

Bu dövrdə sağlamlaşdırma modeli mərhələli və kombinə olunmuş yanaşma kimi formalaşmışdır. Üç dominant mərhələ müəyyən edilir.

Birinci mərhələ (2015–2016) şoka cavab xəttini izlədi. 2015-ci ildə baş verən manat devalvasiyası bank sektoru üçün ciddi stress testi oldu. Bu mərhələdə gizli risklərin görünən hala gətirilməsi, kapital adekvatlığı tələblərinin sərtləşdirilməsi, bazar intizamının bərpasına ilkin zəmin yaradılması əsas prioritetlər idi. Riskli kreditləşmə, zəif təminat siyasəti və qeyri-şəffaf hesabat davranışı daha ciddi nəzarətə məruz qaldı. Bu mərhələnin birinci vacib nəticəsi bankların hesabat davranışının dəyişməsi oldu: daha konservativ qiymətləndirməyə keçiş, kapital adekvatlığı üzrə daha ciddi izləmə. Yeni nəzarət tələbləri sektorda zəif institutları sürətlə aşkar etdi, bu da sonrakı struktur qərarları üçün zəmin hazırladı.

İkinci mərhələ (2017–2021) sektorun struktur təmizlənməsini əhatə etdi. Struktur təmizlənməsi dedikdə sektorun orta keyfiyyətinin iki yolla yüksəlməsi nəzərdə tutulur: zəif bankların bazardan çıxması və qalan bankların tənzimləmə tələblərinə uyğunlaşması. Bu mərhələdə kapital adekvatlığı, likvidlik buferi, risk konsentrasiyası nəzarəti, bağlı tərəflərlə əməliyyatların idarəsi, korporativ idarəetmə standartları daha sistemli tətbiq olundu. Problemli aktivlərin idarə olunması bu mərhələnin ağırlıq nöqtəsini təşkil etdi: problemli kreditlər bank sektorunun kapitalını yeyən əsas kanallardan biridir. Problemli aktivlərin balansda uzun müddət saxlanması həm kapitalı zəiflədir, həm də yeni kredit təklifini məhdudlaşdırır.

Üçüncü mərhələ (2022–2025) bərpa prosesinin dərinləşməsidir. Bu mərhələdə əsas məsələ artıq yalnız risklərin azaldılması deyil, risklə uyğunlaşmış inkişaf mərhələsinə keçməkdir. Bank sektorunun real sektoru maliyyələşdirmə funksiyası daha dayanıqlı formada bərpa olunmalıdır. Bu mərhələdə bazar etimadının güclənməsi xüsusi əhəmiyyət daşıyır: depozit bazasının sabitləşməsi, dollarlaşmanın azalması, bankların uzunmüddətli resurs bazasına çıxışının genişlənməsi bu istiqamətdəki müsbət dinamikanı göstərir. Makroprudensial çərçivənin genişlənməsi, rəqəmsal bankçılıq standartlarının tətbiqi, ESG risklərinin nəzarətə alınması bu mərhələnin əsas institusional dəyişikliklərini formalaşdırır.

Bu dövrdə sağlamlaşdırma modelinin praktik məzmununu tamamlayan mühüm xətt koordinasiya məsələsidir [8, s. 21–23]. Bank sektorunda tədbirlər bir institutla məhdudlaşmır: tənzimləmə, nəzarət, hüquqi prosedurlar, depozit davranışı və makroiqtisadi mühit bir-birinə bağlıdır. Koordinasiya zəif olanda sağlamlaşdırma tədbirləri gecikə bilər, alətlər bir-birini tamamlamaya bilər; koordinasiya güclü olanda isə eyni alət daha yüksək effekt verir. Bu səbəbdən modelin effektivliyi yalnız bankların daxilindəki dəyişikliklərlə deyil, sektor miqyasında institutların davranışı və qərarların ardıcıllığı ilə də bağlıdır.

Sağlamlaşdırma modelinin praktik nəticələri bir neçə istiqamətdə müşahidə olunur. Birinci istiqamət sektorun konsolidasiyasıdır: bankların sayı 45-dən 23-ə enərək sektor daha az sayda, lakin daha dayanıqlı institutlar üzərində yenidən quruldu. İkinci istiqamət risk göstəricilərinin dəyişməsidir: kapital və likvidlik göstəriciləri bankların daha ehtiyatlı davranışını əks etdirir. Üçüncü istiqamət kredit funksiyasının bərpasıdır: kreditin keyfiyyəti, sektoral bölgüsü, müddət strukturu burada əsas ölçülərdir. Dördüncü istiqamət etimadın bərpasıdır: depozitlərin sabitliyi, dollarlaşma davranışı, bazar gözləntiləri bu istiqamətin əsas göstəriciləridir.

Sağlamlaşdırma modelinin praktik arxitekturasında Əmanətlərin Sığortalanması Fondu (ADIF)

mühüm institusional komponent kimi çıxış etmişdir. ADIF-in rolu yalnız əmanətçiləri qorumaqla məhdudlaşmır. Sistemli böhran riskinin yüksək olduğu dövrlərdə ADIF depozit etimadının qorunmasında əsas dayaq nöqtəsinə çevrilir. 2017-ci ildə sığorta limitinin artırılması depozit bazasının sabitləşməsinə birbaşa töhfə verdi: əmanətçilər banklardan kütləvi çıxış riskini azaltdı, bu da bankların likvidlik idarəetməsini asanlaşdırdı [10, s. 14–16].

Cədvəl 1.

Azərbaycan bank sektorunun əsas göstəriciləri (2015–2024)

Göstərici	2015	2017	2019	2021	2023	2024
Bankların sayı	45	32	30	26	24	23
Kapital adekvatlıq (%)	16,2	17,8	18,5	19,2	20,1	20,8
NPL (%)	6,8	12,4	9,2	7,5	5,8	4,9
Likvidlik (%)	58,3	52,1	61,4	68,7	72,3	75,6
Aktivlər (mlrd. AZN)	32,5	28,4	35,6	42,8	51,2	55,8
Kredit portfeli (mlrd. AZN)	18,2	15,3	19,8	24,6	31,4	35,2
Mənfəət (mlrd. AZN)	0,4	-0,8	0,6	1,2	1,8	2,1

Qeyd: Azərbaycan Mərkəzi Bankının illik hesabatları əsasında tərtib edilmişdir.

Cədvəl 2.

Sağlamlaşdırma tədbirlərinin xronologiyası (2015–2024)

İl	Tədbir	Hədəf	Nəticə
2015	Devalvasiya şokuna cavab likvidlik dəstəyi	Likvidlik böhranı	Müvəqqəti stabilləşmə
2016	4 problemli bankın müflis elan edilməsi	Zəif seqmentlərin təmizlənməsi	4 bank bağlandı
2017	Əmanətlərin Sığortalanması Fondunun gücləndirilməsi	Depozit etimadının bərpası	Sığorta limiti artırıldı
2018	Kapital tələblərinin sərtləşdirilməsi	Kapital dayanıqlığı	CAR artımı başladı
2019	Problemli kreditlərin restrukturizasiyası	Aktiv keyfiyyəti	NPL azalması başladı
2020	Pandemiya dövründə kredit güzəştləri	Real sektorun dəstəklənməsi	Kredit donması önləndi
2021	Struktur islahatların davam etdirilməsi	Sektorun konsolidasiyası	Bank sayı 26-ya düşdü
2022	Makroprudensial çərçivənin gücləndirilməsi	Sistemli risklərin idarəsi	Buffer tələbləri tətbiq edildi
2023	Rəqəmsal bankçılıq standartları	Texnoloji dayanıqlıq	Rəqəmsal transformasiya
2024	ESG risklərinin nəzarətə alınması	Dayanıqlı maliyyə	Yeni tənzimləmələr

ADIF-in müflis bankların idarə olunmasında oynadığı rol da sağlamlaşdırma modelinin effektivliyi üçün vacibdir. 2016–2017-ci illərdə müflis elan edilən bankların aktivlərinin idarə olunması, əmanətçilərə ödənişlərin təmin edilməsi və bank bağlanması prosedurlarının şəffaf aparılması bazar etimadı üçün güclü siqnal verdi. Bu prosesin düzgün idarə olunması o deməkdir ki, bankın bağlanması panikatörədici hadisəyə çevrilmir, əksinə, sistemin intizamını göstərən normal bir bazar prosesi kimi qiymətləndirilir. Bu psixoloji effekt sağlamlaşdırmanın texniki göstəricilərindən az əhəmiyyət daşımır [10, s. 17–18; 16, s. 4–7].

Makroiqtisadi mühitin sağlamlaşdırmaya təsiri

2015–2025 dövründə Azərbaycanda bank sektorunun sağlamlaşdırılması vahid bir makroiqtisadi şəraitdə deyil, dəyişən mühitdə baş vermişdir. 2015-ci ildəki devalvasiya, 2020-ci ildəki pandemiyanın iqtisadi şoku, enerji gəlirlərindəki dalğalanmalar, həmçinin geosiyasi dəyişkənliklər sağlamlaşdırma modelinin fəaliyyət şəraitini formalaşdırmışdır. Hər şok yeni prioritetlər yaratmış,

bəzən alətlərin ardıcıllığını dəyişmişdir [4, s. 15–16; 6, s. 9–10]. Məsələn, 2020-ci ildə pandemiyanın iqtisadi effektini azaltmaq üçün kredit güzəştlərinin tətbiqi qısamüddətli kapital göstəricilərini müvəqqəti zəiflədə bilirdi, amma real sektorun maliyyə vəziyyəti üçün vacib dəstək siqnalı verdi.

Makroiqtisadi mühitin sağlamlaşdırmaya ikinci mühüm təsiri dollarlaşma kanalı üzərindən gəlmişdir. Manatın məzənnə dinamikası birbaşa bankların aktiv-öhdəlik uyğunsuzluğuna, kredit portfelinin valyuta risk profilinə və depozit davranışına təsir edir. Buna görə sağlamlaşdırma tədbirlərinin effektivliyi qismən makroiqtisadi sabitliyin özündən asılıdır. Bu qarşılıqlı əlaqə göstərir ki, bank sağlamlaşdırması izolə şəkildə yox, makroiqtisadi siyasətin geniş çərçivəsinin bir hissəsi kimi qiymətləndirilməlidir [5, s. 24–27].

Bu məqalədə effektivlik iki əsas nəticə üzrə müəyyənləşdirilir: maliyyə dayanıqlığının güclənməsi və bank sektorunun funksional bərpası. Qiymətləndirmə məntiqi: tədbirlərin məqsədi aydınlaşdırılır → məqsədi ölçən meyarlar seçilir → dəyişmənin istiqaməti izah edilir → sağlamlaşdırma mexanizmi ilə əlaqə qurulur.

Birinci blok – dayanıqlıq göstəriciləri: kapitalın keyfiyyəti, likvidlik, aktiv keyfiyyəti, risk konsentrasiyası. Aktiv keyfiyyəti bank sağlamlaşdırmasının əsas testidir: kapital formaca yüksək görünsə də, aktiv keyfiyyəti zəif qalarsa, risk yenə bankın içindədir.

İkinci blok – davranış göstəriciləri: kreditləşmə dinamikası, portfel strukturu, depozit bazasının sabitliyi, valyuta davranışı. Kreditin həcmindən daha çox keyfiyyəti, sahə bölgüsü, risk qiyməti həlledicidir. Depozit bazasının sabitliyi etimadın ən real göstəricisidir.

Üçüncü blok – institusional göstəricilər: prudensial nəzarətin ardıcıl tətbiqi, məlumat açıqlığı, hesabatlılıq, korporativ idarəetmə. Bu blok ən yavaş dəyişir, amma uzunmüddətli dayanıqlıq üçün həlledicidir. Qaydaların selektiv tətbiqi bazar intizamını zəiflədər; ardıcıl tətbiq isə “riskli davranış ucuzdur” düşüncəsini aradan qaldırar.

Modelin ən birinci nəticəsi risklərin görünən hala gəlməsidir. Risklər açıq görünəndə bankların maliyyə vəziyyəti daha real qiymətləndirilir: tanınmış itki idarə oluna bilir, gizli itki isə böyüyərək sistemli risk yaradır. 2015-ci ildə aktivlərin ~30%-i gizli risk daşıyırdı; 2024-cü ildə bu göstərici 10–15% aralığına endi. Bu ilk dəyişiklik sağlamlaşdırmanın ən vacib, amma bəzən ən yanlış anlaşılan effektidir: risklər açıldıqca göstəricilər müvəqqəti pisləşmiş kimi görünə bilər. Bu hal normaldır, çünki sağlamlaşdırma əvvəlcə problemləri görünən edir.

Kapital adekvatlığı 16,2%-dən 20,8%-ə çatdı. Bu artım real olması üçün aktiv keyfiyyətinin də paralel olaraq yaxşılaşması tələb olunur: aktiv keyfiyyəti zəif qalarsa, kapital yenə “əriyir”. NPL əmsalı 2017-ci ildəki 12,4% zirvəsindən 2024-cü ildə 4,9%-ə endi [1, s. 19–21]. Bu dinamika problemli aktivlər idarəetməsinin addım-addım effekt verdiyini göstərir. Likvidlik əmsalı 58,3%-dən 75,6%-ə yüksəldi: ehtiyatlı likvidlik rejiminin formalaşdığını göstərən bu dəyişiklik qısamüddətli kredit dinamikasını zəiflədə bilərdi, amma sistemli risklər baxımından daha dayanıqlı mühit yaratdı. Risk konsentrasiyasında da azalma müşahidə edildi: sağlamlaşdırma tələbləri bankları daha səpələnmiş portfellər formalaşdırmağa yönəltdi.

Sağlamlaşdırma dövründə kredit standartları sərtləşdi, portfel daha konservativ xarakter aldı. Bu proses iki paralel cərəyandan ibarətdir: bir tərəfdə banklar daha ehtiyatlı olur, kredit standartları güclənir; digər tərəfdə banklar portfeli yenidən balanslaşdırır, riskli sahələrdən çəkilir, daha proqnozlaşdırılan istiqamətlərə yönəlir. Bu dəyişikliklər qısa müddətdə kredit həcmini zəiflədə bilər, amma kreditin keyfiyyətini artırır. Keyfiyyət artımı uzun müddətdə maliyyə sabitliyi üçün daha dəyərlidir [6, s. 9–11].

Depozit bazasının sabitliyi bankların resurs planlamasını gücləndirir: depozitlər daha proqnozlaşdırılan xarakter aldıqca bankların öhdəlik idarəetməsi asanlaşır. Dollarlaşmanın 65,2%-dən 45,6%-ə geriləməsi həm etimadın bərpasını, həm də bankların valyuta risk profilinin yüngülləşməsini göstərir. Bu dinamika yalnız bank sektorunun daxili dəyişikliyi deyil – bütövlükdə iqtisadi agentlərin AZN-ə güvəninin artmasının əksidir. Kredit artımı 18,5%-dən müvəqqəti zəifliyə, orta

müddətdə isə 12,4%-ə çatdı: bu artım artıq daha keyfiyyətli portfel üzərində qurulan daha dayanıqlı dinamikadır.

Sağlamlaşdırma modelinin üçüncü ölçüsü institutların necə işləməsidir. Bu ölçü ən yavaşdır, amma uzunmüddətli dayanıqlıq üçün həlledicidir [9, s. 6–8]: sağlamlaşdırma birdəfəlik kampaniya deyil, davamlı sistem davranışı yaratmalıdır. Prudensial tələblər indeksi 5,5-dən 8,5-ə, şəffaflıq indeksi 4,8-dən 7,8-ə, korporativ idarəetmə indeksi 5,0-dən 7,2-ə yüksəldi. Bu artımlar qaydaların daha ardıcıl tətbiq olunduğunu, bankların idarəetmə strukturunun dəyişdiyini, məlumat açıqlığının genişləndiyini göstərir.

Prudensial nəzarətin sabit tətbiqi bazar intizamını gücləndirdi: banklar qaydaların ciddi olduğunu hiss etdikdə riskli davranış üçün stimullar zəifləyir. Məlumat açıqlığı artdıqca risk daha tez görünür, qərarlar daha tez verilir, gecikmə azalır. Korporativ idarəetmə mexanizmlərinin real işləməsi isə riskin mənbəyini zəiflədir: daxili nəzarət, risk komitələri, menecment məsuliyyəti birlikdə işlədikdə risklər daha tez tanınır. Lakin formal hesabat tələblərindən real risk mədəniyyətinə keçid hələ davam edən bir prosesdir. Bu proses tam başa çatmadan institusional dayanıqlıq yalnız qismən möhkəmlənmiş sayılır.

Cədvəl 3.

Sağlamlaşdırma modelinin effektivliyinin qiymətləndirilməsi (2015–2024)

Blok	Göstərici	2015	2020	2024	Dəyişim	Qiymət
Dayanıqlıq	Kapital adekvatlığı (%)	16,2	18,9	20,8	+4,6	Müsbət
	NPL əmsalı (%)	6,8	8,2	4,9	–1,9	Müsbət
	Likvidlik əmsalı (%)	58,3	65,4	75,6	+17,3	Müsbət
	ROE (%)	12,4	5,8	14,2	+1,8	Müsbət
Davranış	Kredit artımı (illik, %)	18,5	2,1	12,4	–6,1	Neytral
	Depozit artımı (illik, %)	15,2	8,7	11,3	–3,9	Neytral
	Dollarlaşma (%)	65,2	58,4	45,6	–19,6	Müsbət
İnstitusional	Prudensial tələblər (0–10)	5,5	7,2	8,5	+3,0	Müsbət
	Şəffaflıq indeksi (0–10)	4,8	6,5	7,8	+3,0	Müsbət
	Korp. idarəetmə (0–10)	5,0	6,0	7,2	+2,2	Müsbət
Ümumi	Kompleks indeks	5,8	6,4	7,6	+1,8	Müsbət

Qeyd: İndekslər 0–10 şkalasında qiymətləndirilmişdir; 10 maksimum effektivliyi göstərir.

Bu üç blok birlikdə qiymətləndiriləndə modelin effektivlik şəkli daha aydın görünür. Dayanıqlıq göstəriciləri yaxşılaşa bilər, amma davranış göstəriciləri dəyişməzsə, risk yenidən yığılır. Davranış dəyişə bilər, amma institusional çərçivə zəifdirsə, dəyişiklik davamlı olmur. İnstitusional çərçivə güclənə bilər, amma aktiv keyfiyyəti düzəlməzsə, dayanıqlıq yenə zəif qalır. Buna görə effektivlik balans anlayışı ilə izah olunur.

Bu qiymətləndirmə baxımından 2015–2025 dövrü üzrə model aşağıdakı kimi xarakterizə edilə bilər. Dayanıqlıq istiqamətlərindən birincisi olan kapital güclənməsi dəyişim baxımından müsbətdir. NPL əmsalının azalması aktiv keyfiyyəti istiqamətindəki irəliləyişi göstərir. Likvidlik göstəricisinin yüksəlməsi ehtiyatlı rejimin möhkəmləndiyini sübut edir. Davranış blokunda kredit artımının zəifliyi dayanıqlıq üçün verilmiş qısamüddətli güzəşt kimi qiymətləndirilə bilər. Dollarlaşmanın azalması isə strateji baxımdan ən müsbət davranış dəyişikliklərindən biridir: bu dəyişiklik həm bank sisteminin risk profilini yüngülləşdirir, həm pul siyasəti transmissiyasının keyfiyyətini artırır. İnstitusional blokda isə bütün üç göstərici boyunca sabit artım müşahidə edilir. Bu artım formadan mahiyyətə keçidin hələ davam etdiyini, amma istiqamətin doğru olduğunu göstərir.

Bloklararası uyğunluğun qismən zəif qaldığı yer kredit funksiyasının bərpasında görünür. Dayanıqlıq güclənmişdir, institutsional çərçivə yaxşılaşmışdır, amma kredit artımı hələ sağlamlaş-

dırma öncəsi tempinə qayıtmamışdır. Bu, sağlamlaşdırma proseslərinin tipik dilemmasıdır: ehtiyatlılıq qısa müddətdə kredit genişlənməsini zəiflədər, orta müddətdə isə daha keyfiyyətli genişlənmənin zəminini hazırlayar. 2024-cü ilin göstəriciləri bu keçidin gedişdə olduğuna işarə edir.

Birinci güclü tərəf risklərin şəffaf görünməsinin təmin edilməsidir. 2015-ci ildə bankların aktivlərinin təxminən 30%-i gizli risk daşıyırdı; 2024-cü ildə bu göstərici 10–15% aralığına endi. Tanınmış itki idarə oluna bilir – gizli itki isə böyüyərək sistemli risk yaradır. Sağlamlaşdırma prosesinin bu birinci effekti sonrakı bütün tədbirlərin zəminini hazırladı: risklərin real xəritəsi olmadan düzgün qərar vermək mümkün deyil.

İkinci güclü tərəf sektorun struktur təmizlənməsidir. Bank sayı 45-dən 23-ə endirilərək sektor daha az sayda, amma daha dayanıqlı institutlar üzərində yenidən quruldu. Bu proses ağrılı olsa da uzun müddətdə risk yığımını azaltdı, bazar intizamını gücləndirdi. Üçüncü güclü tərəf prudensial standartların gücləndirilməsidir: banklar kapital buferlərini artırmağa, riskli aktivlərdən çəkinməyə, hesabatlılığa daha ciddi yanaşmağa məcbur oldu. Dördüncü güclü tərəf risk mədəniyyətinin tədricən formalaşmasıdır – qərar proseslərində riskin qiyməti daha sistematik nəzərə alınmağa başlandı. Beşinci güclü tərəf kredit və ödəniş sistemlərinin bərpası üçün zəmin yaradılmasıdır: dayanıqlıq bu bərpanın başlanğıc şərtidir, onsuz sektor genişləndikcə risk daha tez böyüyür.

Birinci məhdudiyyət nəticələrin gecikmə ilə ortaya çıxmasıdır: 2015-ci ildən 2018-ci ilə qədər olan 3–4 illik dövrdə 4 bank bağlandı, göstəricilər müvəqqəti pisləşdi. Bu gecikmə dövrü sağlamlaşdırmanı yanlış qiymətləndirmə riskini özündə daşıdı. Əsas risk prosesin yarımçıq qalmasında idi – yarımçıq qalan sağlamlaşdırma risklərin yenidən yığılmasına yol açır.

İkinci məhdudiyyət koordinasiya zəifliyidir. Nəzarət, hüquqi prosedurlar, bazar davranışı, makroiqtisadi gözləntilər bir-birilə bağlıdır; bu sahələrin birindəki boşluq ümumi effekti aşağı salır. Məsələn, prudensial tələblər sərt ola bilər, amma hüquqi mühit zəifdirsə problemli aktivlərin həlli uzanır – bu isə bankların balansını uzun müddət zəif saxlayır. Üçüncü məhdudiyyət kredit funksiyasının bərpasındakı çətinlikdir: həddindən artıq ehtiyatlılıq real sektorun maliyyələşməsini uzun müddət məhdudlaşdırır, bu da öz növbəsində borcalanların gəlirini azaldır və problemli kreditləri artıra bilər.

Dördüncü məhdudiyyət etimadın yalnız texniki tədbirlərlə bərpa olunmamasıdır. Etimad bankın sosial kapitalıdır; zəifləyəndə depozit davranışı dəyişir, valyuta seçimi dəyişir, kredit funksiyası məhdudlaşır. Şəffaflıq, sabit qaydalar, proqnozlaşdırılan siyasət olmadan etimad gec bərpa olunur. Beşinci məhdudiyyət institusional dəyişikliklərin səthi qalma riskidir: qaydalar gücləndirilsə belə, tətbiq ardıcıl deyilsə, daxili nəzarət formaldırsa, risk yenidən yığılır. Sağlamlaşdırma bu halda davamlı sistem davranışı deyil, müvəqqəti kampaniyaya çevrilir.

Nəticə

2015–2025 dövrü Azərbaycanda bank sektorunda sağlamlaşdırma yanaşmasının qısamüddətli sabitləşmə hüdudlarını aşdığını göstərdi. NPL 12,4%-dən 4,9%-ə enmiş, kapital adekvatlığı 16,2%-dən 20,8%-ə yüksəlmiş, likvidlik əmsalı 58,3%-dən 75,6%-ə çatmış, bank sayı 45-dən 23-ə düşmüşdür [1, s. 18–22; 3, s. 31–34]. Bu rəqəmlər modelin struktur və dayanıqlıq istiqamətlərində əhəmiyyətli nəticələr verdiyini təsdiqləyir [7, s. 44–48]. Davranış göstəriciləri kredit portfelinin keyfiyyətinin yaxşılaşmasını, depozit bazasının sabitləşməsini, valyuta davranışında müsbət dəyişkənlik dinamikasını göstərir. İnstitusional göstəricilər isə prudensial tənzimləmənin, şəffaflığın və korporativ idarəetmə standartlarının tədricən möhkəmləndiyini ortaya qoyur.

Modelin effektivliyinin artırılması üçün beş strateji istiqamət müəyyənləşdirilmişdir. Birinci istiqamət AMB, ADIF və Maliyyə Nazirliyi arasında koordinasiya mexanizminin gücləndirilməsidir: aylıq koordinasiya şurası, aydın məsuliyyət bölgüsü, sabit prosedurlar tələb olunur. Koordinasiya güclü olanda eyni alət daha yüksək effekt verir, tədbirlərin gecikmə riski azalır. İkinci istiqamət aktiv keyfiyyətinin idarə olunmasının daha sistemli aparılmasıdır: problemli aktivlərin uzun müddət balansda saxlanılması həm kapitalı zəiflədər, həm kredit funksiyasını məhdudlaşdırar. Xüsusi idarəetmə strukturunun yaradılması və ya bu funksiyanın ADIF-ə həvalə edilməsinin

müzakirəsi bu istiqamətdə əsas addımdır.

Üçüncü istiqamət korporativ idarəetmə və risk idarəetməsinin real işləməsinin təmin edilməsidir: banklar rəhbərliyinin təyinində peşəkarlıq meyarlarının gücləndirilməsi, müstəqil direktorların rolunun artırılması, risk komitələrinin formal deyil, real fəaliyyəti. Dördüncü istiqamət şəffaflıq standartlarının sabit saxlanmasıdır: yarımillik hesabatların açıqlanması, risk profili barədə əlavə məlumatların ictimaiyyətə çatdırılması etimadı gücləndirir, etimad isə resurs bazasını möhkəmləndirir. Beşinci istiqamət kreditləşmənin real sektorun artım tempi ilə uzlaşdırılmasıdır: prioritizasiya meyarlarının aydınlaşdırılması, uzunmüddətli kreditlərin təşviqi həm sektorun sabitliyini, həm iqtisadiyyata xidmət imkanlarını gücləndirir.

Yekunda, effektivliyin davamlı olması üçün institusional çərçivənin sabit işləməsi, etimadın bərpasının daim qorunması və kredit funksiyasının risklə uyğunlaşmış şəkildə bərpası vacibdir. Bu şərtlər birlikdə yerinə yetirildikdə sağlamlaşdırma modeli yalnız böhran idarəetməsi aləti yox, sektorun daimi davranış mədəniyyətinə çevrilir. Bu tədqiqatın nəticələri bank sektorunda sağlamlaşdırma siyasətinin təkmilləşdirilməsi, problemli aktivlərin idarə olunması və prudensial nəzarətin effektivliyinin artırılması üçün praktik baza kimi istifadə edilə bilər.

Gələcək tədqiqatlar üçün iki istiqamət perspektivli görünür. Birincisi, sağlamlaşdırma modelinin effektivliyinin müqayisəli metodla – Gürcüstan, Ukrayna kimi oxşar keçid iqtisadiyyatı ölkələri ilə birgə – araşdırılmasıdır. Bu müqayisə ölkəyə xas amillərin effektivliyə töhfəsini daha dəqiq müəyyənləşdirməyə imkan verər. İkincisi, rəqəmsal bankçılıq transformasiyasının prudensial çərçivəyə təsirinin araşdırılmasıdır: fintech inkişafı, rəqəmsal ödəniş platformaları və açıq bankçılıq standartları sağlamlaşdırma alətlərinin yenilənməsini tələb edir. Azərbaycanda rəqəmsal bankçılıq standartlarının 2023-cü ildə tətbiqi bu sahədə araşdırma üçün ilkin zəmin yaratmışdır [2, s. 8–10].

ƏDƏBİYYAT

1. Azərbaycan Mərkəzi Bankı. (2025). Maliyyə sabitliyi hesabatı 2024. Bakı.
2. Azərbaycan Mərkəzi Bankı. (2024). Bank sektoru üzrə makroprudensial siyasət çərçivəsi. Bakı.
3. Azərbaycan Mərkəzi Bankı. (2024). 2023-cü il üzrə illik hesabat. Bakı.
4. Beynəlxalq Valyuta Fondu. (2025). Azərbaycan: 2025-ci il IV məsləhətləşmə hesabatı. Washington, DC.
5. Beynəlxalq Valyuta Fondu. (2025). Azərbaycan: Maliyyə sektorunun sabitliyi üzrə qiymətləndirmə. Washington, DC.
6. Beynəlxalq Valyuta Fondu. (2024). Azərbaycan: 2023-cü il məsləhətləşmə hesabatı. Washington, DC.
7. Dünya Bankı. (2024). Global Financial Development Report 2024. Washington, DC.
8. Financial Stability Board. (2024). 2024 Resolution Report: From Lessons to Action. Basel.
9. Basel Committee. (2023). Basel III: Finalising post-crisis reforms. BIS.
10. Əmanətlərin Sığortalanması Fondu. (2024). 2023-cü il üzrə illik hesabat. Bakı.
11. Aliyev, R. (2023). Bank sektorunda risklərin idarə edilməsi. İqtisadi Araşdırmalar Jurnalı, 15(2), 45–62.
12. Məmmədov, T. (2022). Azərbaycanda bank sektorunun transformasiyası: 2015–2022. AMEA İİ Xəbərləri, 4, 78–95.
13. Brei, M., Gambacorta, L. (2022). Are bank resolution frameworks fit for purpose? Journal of Financial Stability, 60.
14. Demirgüç-Kunt, A. et al. (2021). Banking sector performance in COVID-19. Journal of Banking & Finance, 133.
15. Laeven, L., Valencia, F. (2020). Systemic banking crises database II. IMF Economic Review, 68(2), 307–361.
16. Avgouleas, E., Goodhart, C. (2020). Critical reflections on bank bail-ins. J. Financial

Regulation, 6(1), 1–29.
17. Reinhart, C. M., Rogoff, K. S. (2010). This Time Is Different. Princeton University Press.
18. Hryckiewicz, A. (2014). Government interventions in the banking sector. Journal of Banking & Finance, 46, 246–265.

Сахил Видади оглы Муртузаев
докторант кафедры экономической теории,
Азербайджанский Государственный
Экономический Университет
E-mail: sahilmurtuzayevsh@gmail.com

Оценка эффективности модели механизма оздоровления банков в Азербайджане

Резюме

Цель исследования – оценить эффективность модели механизма оздоровления банков в Азербайджане в период 2015–2025 гг. и определить влияние этих мер на устойчивость банковского сектора и его способность обслуживать реальную экономику.

Методология исследования – исследование основано на методах научной абстракции, сравнительного анализа, статистического анализа и институционального подхода. Показатели устойчивости банковского сектора, поведение сектора и институциональные изменения были проанализированы комплексно.

Практическая значимость исследования – полученные результаты позволяют сформулировать практические рекомендации по совершенствованию политики оздоровления банковского сектора, повышению эффективности пруденциального надзора и управлению проблемными активами.

Результаты исследования – результаты показывают, что модель оздоровления способствовала повышению прозрачности рисков в банковском секторе, укреплению капитальной и ликвидной устойчивости банков, а также усилению надзорной рамки. В то же время восстановление кредитной функции, стабилизация доверия к сектору и институциональная координация остаются чувствительными направлениями.

Оригинальность и научная новизна исследования – в статье эффективность модели оздоровления банков оценивается не только на основе финансовых показателей, но и в контексте изменений поведения банковского сектора и институциональной среды.

Ключевые слова: оздоровление банков, финансовая стабильность, пруденциальный надзор, проблемные кредиты, устойчивость капитала, банковский сектор.

Sahil Vidadi Murtuzayev
PhD student, Department of Economic Theory
Azerbaijan State University of Economics
E-mail: sahilmurtuzayevsh@gmail.com

Assessing the Effectiveness of the Bank Rehabilitation Mechanism Model in Azerbaijan

Summary

Purpose of the research – to assess the effectiveness of the bank rehabilitation mechanism model in Azerbaijan during the period 2015–2025 and to examine how these measures influenced the resilience of the banking sector and its capacity to support the real economy.

Research methodology – the study is based on methods of scientific abstraction, comparative analysis, statistical analysis and the institutional approach. The resilience indicators of the banking sector, sectoral behavior and institutional changes were analyzed in a comprehensive framework.

Practical significance of the research – the obtained results provide practical recommendations for improving bank rehabilitation policies, enhancing prudential supervision and strengthening the management of distressed assets.

Results of the research – the findings indicate that the rehabilitation model contributed to greater transparency of risks in the banking sector, stronger capital and liquidity resilience, and a more robust supervisory framework. At the same time, the recovery of the credit function, the stabilization of sectoral confidence and institutional coordination remain sensitive areas affecting overall effectiveness.

Originality and scientific novelty of the research – the article evaluates the effectiveness of the bank rehabilitation model not only through financial indicators but also through changes in sectoral behavior and the institutional environment.

Key words: bank rehabilitation, financial stability, prudential supervision, non-performing loans, capital resilience, banking sector.